*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 1-2 (9185-9186) | 27 yanvar 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

## Mətbuat işçiləri üçün yaşayış binasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədi ilə 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 30 dekabr 2014-cü il.***

## 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili"elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılmışdır. Aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir.

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir.

Şəmkirçay və Taxtakörpü su anbarlarının istismara verilməsi suvarılan yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə və torpaqların münbitliyinin qorunmasına şərait yaradır.

Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi ilə qərara alıram:

1. 2015-ci il Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə birlikdə 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 12 yanvar 2015-ci il.***

## Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır

***AzərTAc. ABŞ-ın "Global Firepower" araşdırma mərkəzi dünyanın ən güclü ordularının siyahısını tərtib edib. Siyahıda Azərbaycan ordusu da yer alır.***

AzərTAc "Global Firepower"in saytına istinadla xəbər verir ki, 106 ölkənin yer aldığı reytinq siyahısında Azərbaycan ordusu 50-ci yerdədir. Siyahı hazırlanarkən orduların quruda, havada və dənizdə adi silahlardan istifadə imkanları, həmçinin ölkənin malik olduğu iqtisadi resurslar və coğrafi vəziyyət əsas götürülüb.

Ümumilikdə, 50 amil əsasında tərtib olunan siyahıya ABŞ ordusu başçılıq edir. İkinci yerdə Rusiya, üçüncü yerdə Çin ordusudur.

Azərbaycan Rumıniya, Belarus, Gürcüstan, Qazaxıstan, Portuqaliya, Macarıstan, Kolumbiya, Yunanıstan kimi ölkələri geridə qoyub. Ermənistanın adı isə ümumiyyətlə siyahıya düşməyib.

## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.**

- Bu gün biz 2014-cü ilin yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edilmişdir. 2014-cü il də ölkəmiz üçün uğurlu il kimi tarixdə qalacaqdır.

Düz bir il bundan əvvəl biz keçən ildə görüləcək işlərlə bağlı geniş fikir mübadiləsi aparmışdıq, qarşıya mühüm vəzifələr qoyulmuşdu və il ərzində çox gərgin iş aparılmışdır. Keçən il dünyada və bölgədə müxtəlif proseslər gedirdi. Gərginlik, demək olar ki, böyük dərəcədə artmışdır. Ancaq Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilmişdir. Ölkəmizin təhlükəsizliyi təmin edilmişdir, iqtisadi və sosial proqramlar icra olunmuşdur. Azərbaycan xalqı 2014-cü ildə də təhlükəsizlik şəraitində yaşamışdır.

Bu, bir daha onu göstərir ki, bizim tutduğumuz yol düzgün yoldur. Azərbaycan müstəqillik, inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurla icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək.

Ölkə iqtisadiyyatı uğurla inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşıya vəzifə qoyulmuşdur ki, həm ümumi daxili məhsul, eyni zamanda, qeyri-neft sektorumuz artsın. Bu iki əsas vəzifə tam şəkildə təmin edilmişdir. İqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Bu, bugünkü dünyada çox gözəl göstəricidir. Bəzi ölkələrdə artım da yoxdur, əksinə, tənəzzül müşahidə edilir. Artım olan ölkələrdə bu, 1 faizə qədərdir.

Baxmayaraq ki, ilin sonunda neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artmışdır. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində görülən işlərin bariz nümunəsidir, aparılan siyasətimizin təzahürüdür.

İnflyasiya çox aşağı səviyyədə olmuşdur - 1,4 faiz. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır. Əhalinin pul gəlirləri inflyasiyanı üç dəfədən çox üstələmişdir. Deyə bilərəm ki, son illər ərzində bu mənzərə müşahidə olunur - əhalinin pul gəlirləri inflyasiyanı bir neçə dəfə qabaqlayır. Bu da insanların rifah halının yaxşılaşmasına müsbət təsir göstərir.

Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur. Onlardan 16 milyardı daxili sərmayədir. Bu da çox sevindirici haldır. Son illər ərzində daxili sərmayələr qoyulan investisiyaların həcmində üstünlük təşkil edir. Eyni zamanda, qoyulan 11 milyard dollar xarici sərmayə göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır.

Əlbəttə ki, bu uğurun təməlində son illərdə aparılan siyasət dayanır. Əgər bu siyasət, investorların Azərbaycanın sabitliyinə, gələcəyinə inamı olmasaydı, heç kim Azərbaycana vəsait qoymazdı. 27 milyard dollar həcmində investisiya qoyuluşu və bunun müqabilində 1,4 faizlik inflyasiya Azərbaycanın uğurlu inkişafının ən gözəl göstəricisidir. Çünki həm pensiyalar, maaşlar, həm də əhalinin pul gəlirləri artmışdır, böyük həcmdə investisiya qoyulmuşdur, inflyasiya isə ən aşağı səviyyədədir.

Manatın məzənnəsi sabitdir. Bir neçə ildir ki, manatın məzənnəsi nəinki sabitdir və eyni zamanda, əsas dünya valyutalarına qarşı daha da böyük dəyər qazanır. Bu, bir daha bizim uğurlu iqtisadi siyasətimizi göstərir.

Valyuta ehtiyatlarımız artıb. Hazırda bizim 50 milyard dollardan çox valyuta ehtiyatlarımız vardır.

Bir sözlə, 2014-cü ildə əsas iqtisadi göstəricilərimiz çox müsbətdir, deyə bilərəm ki, bəlkə dünya miqyasında ən gözəl göstəricilərdir. Azərbaycan son 11 il ərzində dünyada iqtisadi artım templərinə görə ən sürətlə inkişaf edən ölkədir. Bunu əhali, xalqımız görür, gözəlləşən ölkəmiz bunun bariz sübutudur. Eyni zamanda, bunu mötəbər beynəlxalq iqtisadi qurumlar qeyd edirlər. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür. Yəni, biz dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındayıq. Bu, tarixi nailiyyətdir.

Əlbəttə, güclü iqtisadiyyat, düşünülmüş siyasət imkan verir ki, sosial sahəyə də diqqət göstərilsin. Bu sahə daim prioritetdir, bu il də prioritet olaraq qalacaq. Sosial obyektlərin inşası uğurla təmin edilmişdir, 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb tikilib istifadəyə verilmişdir. Əməkhaqqı, pensiya artmışdır. Azərbaycanda orta aylıq əməkhaqqı artıq 600 dollara yaxınlaşır. Biz çalışacağıq ki, bu templər ildən-ilə daha sürətlə təmin edilsin. 400 min insana ünvanlı sosial yardım verilir, 90 mindən çox ailə dövlətdən ünvanlı sosial yardım alır. Dövlət tərəfindən hər ailəyə orta hesabla 155 manat, yəni, 200 dollara yaxın vəsait verilir.

Hazırda Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Keçən il də yoxsulluq aşağı düşübdür, işsizlik 5 faizdən aşağıdır. Bizim gördüyümüz işlərin nəticələri bax, budur. Bu rəqəmlər özlüyündə bizim uğurlu inkişafımızı təsdiq edir.

Keçən il Azərbaycanda "Sənaye ili" elan edilmişdir və 230-dan çox sənaye müəssisəsi yaradılmışdır. 123 min yeni iş yeri açılmışdır ki, onlardan təxminən 100 mini daimi iş yeridir. Bu proses də sürətlə getməlidir. Çünki Azərbaycanda yeni iş yerlərinin yaradılmasına hələ də ehtiyac var. İşsizlik hələ var, eyni zamanda, sürətli iqtisadi inkişaf demoqrafik vəziyyətə müsbət təsir etmişdir. Keçən il Azərbaycanda əhalinin sayı 116 min nəfər artmışdır. Odur ki, yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır.

Keçən il bir neçə iri layihə icra edilmişdir. Hər bir layihə özlüyündə nəhəng bir layihədir. Mən onların arasında Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən qurulmasını xüsusilə qeyd etmək istəyirəm. Eyni zamanda, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalı istifadəyə verilmişdir. Yəni, bu layihənin birinci mərhələsinin birinci hissəsi artıq icra edilmişdir. Şəmkirçay su anbarı istifadəyə verilmişdir. Bu da nəhəng layihədir, ölkəmizin uzunmüddətli və sürətli inkişafına təkan verəcək. Eyni zamanda, böyük sənaye müəssisələri, o cümlədən "Norm" sement zavodu istifadəyə verilmişdir ki, orada sementin istehsalı 2 milyon tona bərabərdir. Bu zavodun istifadəyə verilməsi ilə biz artıq idxaldan asılılığımızı tamamilə aradan götürmüşük və ixrac imkanlarımız da artır.



Keçən il ikinci peykimiz orbitə buraxıldı. Bu da çox gözəl hadisədir. Bu da nəhəng layihələr arasında özünəməxsus yer tutan bir layihədir. Artıq bizim iki peykimiz var. Biri telekommunikasiya peyki, ikincisi Yer səthini müşahidə edən peyk. Bunun çox böyük əhəmiyyəti var və Azərbaycanda kosmik sənayenin inkişafı sürətlə gedir.

"ASAN xidmət" mərkəzlərinin açılmasını xüsusilə qeyd etmək istəyirəm. Artıq 7 mərkəz fəaliyyət göstərir, iki il ərzində 3 milyon 500 min müraciət olmuşdur və orada göstərilən xidmətlərin sayı artır, keyfiyyəti yüksək səviyyədədir, cəmiyyət tərəfindən çox müsbət qarşılanır.

Biz keçən il beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq etmişik. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Azərbaycan fəal iştirak edir, öz mövqeyini müdafiə edir və bu təşkilatların uğurlu fəaliyyətinə öz dəyərli töhfəsini verir. Keçən il biz Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etmişik. Bu, çox uğurlu sədrlik dövrü idi. Bu dövr ərzində Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına, ədalətin bərqərar olmasına Azərbaycan çox böyük və dəyərli töhfələr vermişdir. Xüsusilə, ölkəmizin multikulturalizmlə bağlı təcrübəsi nadir xarakter daşıyır.

2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq, Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir.

Yenə də demək istəyirəm ki, 2014-cü ilin yekunları və 2015-ci il bir daha bizim gücümüzü göstərəcək. Nə neftin qiymətinin düşməsi, nə böhranlar, nə yaxınlıqda baş verən qanlı toqquşmalar bizim sürətli inkişafımıza təsir edə bilməz. Mən tam əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq və ölkəmizin inkişafını təmin edəcəyik.

İclasda İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış etmişdir.

Prezident İlham Əliyev iclasda yekun nitqi söyləmişdir.

**Qeyd: Prezident İlham Əliyevin çıxışı ixtisarla dərc olunmuşdur.**

# Mülki müdafiə sahəsində 2014-cü tədris ilinin yekunları və 2015-ci tədris ilində qarşıda duran vəzifələr barədə

## QAZAX RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏRƏNCAMI

2014-cü tədris ilində mülki müdafiə sahəsində rayon İcra Hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, eləcə də rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda planlaşdırılmış tədbirlər əsasən yerinə yetirilmişdir.

Tədris ili ərzində keçirilən tədbirlər zamanı mülki müdafiə qüvvələri şərti olaraq fövqəladə hal baş vermiş ərazinin mühafizəsi, əraziyə giriş-çıxışın məhdudlaşdırılması, obyektə daxil olmuş cinayətkar qrupun zərərsizləşdirilməsi, baş vermiş yanğınların söndürülməsi, kimyəvi zəhərlənmə zonasının lokallaşdırılması, partlayış baş vermiş obyektdə kimyəvi kəşfiyyatın və axtarış-xilasetmə işlərinin təşkili, zərərçəkmişlərə tibbi yardımın göstərilməsi, epidemiya və epizootiyadan mühafizə tədbirlərinin təşkili və adamların təhlükəsiz ərazilərə təxliyə edilməsi ilə bağlı tapşırıqlar yerinə yetirilmişdir.

Təlimlərin və məşqlərin keçirilməsində əsas diqqət komandir-rəis heyətinin idarəetmə bacarığının və mülki müdafiə qüvvələrinin şəxsi heyətinin peşəkarlıq səviyyəsinin artırılmasına, xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmasına yönəldilmişdir.

2014-cü tədris ilində Fövqəladə Hallar Nazirliyinin Mərkəzi mülki müdafiə kurslarının kateqoriyalar üzrə dinləyicilərlə komplektləşdirmə planına uyğun olaraq rayonun rəhbər və komandir-rəis heyətindən 14 nəfərin Mərkəzi mülki müdafiə kurslarında hazırlanması təmin olunmuş, rayon əhalisinə mühafizə biliklərinin öyrədilməsində mülki müdafiə təbliğatının böyük rol oynadığını nəzərə alaraq rayonun kütləvi informasiya vasitələrindən səmərəli istifadə edilmiş, müvafiq mövzuda yazılar "Göyəzən" rayon qəzetində dərc edilmişdir.

Qazax rayonunun Ermənistan respublikası ilə 168 km həmsərhəd olmasını və döyüş bölgəsində yerləşməsini nəzərə alaraq "Mina Təhlükəsizliyi" ilə bağlı Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) rayonumuzda keçirdiyi tədbirlərdə yaxından iştirak edilmiş, 2014-cü ildə rayon ərazisində aşkar olunmuş partlamamış hərbi sursatların (PHS) zərərsizləşdirilərək təmizlənməsi istiqamətində lazımi tədbirlər həyata keçirilmişdir.

Əhalinin maarifləndirilməsi ilə bağlı, 1 mart tarixində "Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması" mövzusunda "Ümumdünya mülki müdafiə günü" ilə əlaqədar rayonun idarə, müəssisə və təşkilatlarında, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində maarifləndirmə tədbirləri keçirilmiş, mülki müdafiəyə həsr olunmuş yığıncaqlar, mülki müdafiə qüvvələrinin xəbərdarlıq toplanış məşqi, mülki müdafiə əmlaklarının sərgiləri təşkil olunmuş, yaralanmalar zamanı ilkin tibbi yardımın göstərilməsi və yanğınların qarşısının alınması üsulları, fövqəladə hallar zamanı təxliyənin təşkili qaydaları nümayiş etdirilmiş, məktəblərdə açıq dərslər keçirilmişdir.

2015-ci tədris ilində, rayon ərazisində fəaliyyət göstərən, mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların mülki müdafiəyə hazırlanmasında əsas məqsəd - mülki müdafiə işinin təşkilində mülki müdafiə idarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və mülki müdafiə qərargahlarının rolunun artırılması, əhalinin və işçilərin mülki müdafiəyə hazırlanması, fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsidir. Odur ki, mülki müdafiə sahəsində tədbirlərin planlaşdırılması və həyata keçirilməsi, fövqəladə hadisələr zamanı əhalinin mühafizəsi və əhaliyə mülki müdafiənin öyrədilməsi sahəsində aparılan işlərin səmərəliliyinin artırılması məqsədilə

**QƏRARA ALIRAM:**

**1.** 2015-ci tədris ilində rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların mülki müdafiəyə hazırlanmasında əsas diqqət mülki müdafiə tədbirlərinin vaxtında və keyfiyyətlə icra olunmasına, mülki müdafiə sahəsində maarifləndirmə işinin gücləndirilməsinə, mülki müdafiə qüvvələrinin hazırlıq səviyyəsinin artırılmasına, əhalinin və işçilərin ehtimal olunan fövqəladə hadisələrin təsirindən qorunmasına və fövqəladə hadisələr zamanı xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsinin təşkilinə yönəldilsin.

**2.** Rayon ərazisində fəaliyyət göstərən, mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda mülki müdafiə işi "Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun, "Mülki müdafiənin təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1998-ci il tarixli 193 nömrəli qərarının və mülki müdafiə sahəsində digər normativ hüquqi sənədlərin tələblərinə uyğun olaraq təşkil edilsin.

**3.** 2015-ci il üçün mülki müdafiə tədbirlərinin Gəncə Regional Fövqəladə Hallar və

Mülki Müdafiə Şöbəsi ilə razılaşdırılaraq yerinə yetirilməsi təmin edilsin.

**4.** Mülki müdafiə xidmətlərində və mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda mülki müdafiə dəstələrinin yaradılması və mülki müdafiə üzrə hazırlanması təşkil olunsun.

**5.** Əhalinin və işçilərin fövqəladə hallardan mühafizəsi ilə bağlı tədbirlərin görülməsi təmin edilsin və fövqəladə hallar komissiyalarının fəaliyyətləri əlaqələndirilsin.

**6.** Ehtiyat idarəetmə məntəqələrinin hazır vəziyyətdə saxlanılması və vaxtında işə hazırlanması təmin edilsin.

**7.** Mülki müdafiə normativlərinin yerinə yetirilməsi, mülki müdafiə təlim və məşqləri

"Mülki müdafiənin təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1998-ci il tarixli 193 nömrəli qərarına uyğun olaraq həyata keçirilsin.

**8.** 2015-ci tədris ilində obyektlərin rəhbər, komandir - rəis heyətinin, mülki müdafiə qüvvələrinin və mütəxəssislərinin hazırlanması, işçilərə və işləməyən əhaliyə, ali məktəb və kollec tələbələrinə, texniki peşə və orta ümumtəhsil məktəblərinin şagirdlərinə mülki müdafiənin öyrədilməsi "Mülki müdafiənin təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 193 nömrəli 25 sentyabr 1998-ci il tarixli qərarının tələblərinə uyğun həyata keçirilsin.

**9.** Ümumtəhsil məktəbləri, texniki peşə və onlara bərabər tutulan digər təhsil müəssisələrində 1 aprel 2015-ci il tarixdən 15 may 2015-ci il tarixədək mülki müdafiə günləri keçirilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 dekabr 1992-ci il tarixli 655-32 nömrəli qərarına müvafiq olaraq rayonda xəbərdarlıq və rabitə sistemlərinin hazır vəziyyətdə saxlanılması, fövqəladə hadisələr zamanı idarəetmənin operativ təşkili, mərkəzi çağırış dayağının və elektrik sirenalarının işlək vəziyyətdə saxlanılması rayon Telekommunikasiya Qovşağının rəhbərliyinə tapşırılsın.

**11.** "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin əsas prinsipləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetininn 28 dekabr 1992-ci il tarixli 700 nömrəli qərarının tələblərinin yerinə yetirilməsi məqsədilə rayon ərazisində kollektiv mühafizə qurğuları tələb olunan texniki istismar vəziyyətinə gətirilsin.

**12.** Mülki müdafiənin maddi - texniki bazasının, mühafizə qurğuları fondunun, fərdi mühafizə vasitələri, cihazlar və digər mülki müdafiə avadanlıqları ehtiyatının yaradılması və hazır vəziyyətdə saxlanılması təmin edilsin. Kimyəvi təhlükəli obyektlərdə bu tədbirlərin yerinə yetirilməsinə xüsusi diqqət yetirilsin.

**13.** Müşahidə və Laboratoriya Nəzarəti Şəbəkəsinə daxil olan obyekt laboratoriyalarının hazırlığına, avadanlıq və cihazlarla təmin olunmasına diqqət artırılsın.

**14.** Mülki müdafiə üzrə tədris ili 5 yanvar 2015-ci il tarixdə başlansın və 30 noyabr 2015-ci il tarixdə başa çatdırılsın.

**15.** Sərəncam rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlara çatdırılsın.

**16.** Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti başçısının birinci müavini -

Rayon fövqəladə hallar komissiyasının sədri Fərman Nağdalıyevə həvalə edilsin.

**Ayaz ƏSGƏROV,**
**Qazax rayonu İcra Hakimiyyətinin Başçısı**

***19 dekabr 2014-cü il***

# RAYONUMUZDA 20 YANVAR FACİƏSİNİN 25-Cİ İLDÖNÜMÜ QEYD EDİLMİŞDİR





**Azərbaycan xalqının azadlığı uğrunda canlarından keçmiş, respublikamızın müstəqilliyi yolunda öz həyatlarını qurban vermiş 20 Yanvar şəhidlərinin xatirəsi yad edilmişdir.**

Bununla əlaqədar olaraq şəhərin mərkəzindəki Şəhidlər xiyabanında mərasim keçirilmişdir. İnsanlar öz ehtiramlarını bildirmək üçün əllərində qırmızı qərənfil və tər gül dəstələri bu müqəddəs ünvana gəlmişdilər. Ətrafa həzin və kədərli musiqi səsi yayılırdı. Qazax Cümə məscidində şəhidlərin ruhuna dualar oxunmuş, xatirələri anılmışdır.

Saat 12:00-da respublikamızın hər yerində olduğu kimi rayonumuzda da şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir. Küçələrdə hərəkət dayandırılmış, səs siqnalları verilmişdir.

Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov 20 Yanvar şəhidlərinin xatirəsini yad etmək üçün şəhidlər xiyabanına gəlmişdir. Bir dəqiqəlik sükutdan sonra Ayaz Əsgərov şəhidlərin abidəsi önünə gül dəstələri qoyaraq onların xatirəsini dərin ehtiramla yad etmişdir.

Sonra tədbirdə iştirak edən idarə, müəssisə, təşkilat rəhbərləri, rayon sakinləri, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri Şəhidlər xiyabanında abidənin önünə gələrək qırmızı qərənfillər qoymuş, şəhidlərin ölməz ruhunu yad etmişlər.

**Elçin İSMAYIL**



# İmzalanma mərasimi keçirilmişdir

***Ölkəmizin beynəlxalq əlaqələrinin artması dünya dövlətlərinin Azərbaycanla sıx əməkdaşlıq etməsinə səbəb olmuşdur. Ayrı-ayrı ölkələrin respublikamıza olan marağı ildən-ilə artır. Bunun nəticəsidir ki, nəinki Bakı şəhərində, eləcə də respublikamızın bölgələrində xarici dövlətlər tikinti-quruculuq işlərində fəal iştirak edirlər. Bu günlərdə rayonumuzda keçirilən imzalanma mərasimi də bunun əyani sübutudur.***

Belə ki, Qazaxda Yaponiyanın Azərbaycan Respublikasındakı səfirliyinin maliyyə dəstəyi ilə rayonun Daş Salahlı kəndində tikiləcək Tibb Məntəqəsinin layihəsinin imzalanma mərasimi keçirilmişdir.

Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı fövqaladə və səlahiyyətli səfiri cənab Tsuquo Takahaşi, səfirliyin xarici məsləhətçisi xanım Fumie Suqiyama, Qazax rayonunun müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri - İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Arzu Novruzov, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, Daş Salahlı bələdiyyəsinin sədri Mahir Quliyev, "İnkişaf-2006" İctimai Dəstək Birliyinin icraçı direktoru Füzuli Abiyev, birliyin sədri xanım Yaqut Süleymanova və yerli KİV nümayəndələri iştirak etmişlər.

Birliyin icraçı direktoru Füzuli Abiyev tədbiri giriş sözü ilə açaraq tikiləcək tibb mərkəzi barədə danışmışdır.

Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev çıxış edərək qonaqlara rayonumuz haqqında ətraflı məlumat vermiş, Qazaxda aparılan tikinti-quruculuq işlərindən danışmışdır.

Yaponiyanın Azərbaycan Respublikasındakı səfiri Tsuquo Takahaşi öz çıxışında imzalanan layihənin və tikiləcək Tibb Məntəqəsinin əhəmiyyəti barədə məlumat vermişdir.

Sonra Tibb Məntəqəsinin layihəsinin imzalanma mərasimi olmuşdur. Layihəni səfir Tsuquo Takahaşi və Birliyin icraçı direktoru Füzuli Abiyev imzalamışlar.

Tədbirdən sonra Yaponiyanın Azərbaycan Respublikasındakı səfiri Tsuquo Takahaşi KİV nümayəndələrinə müsahibə vermişdir.

**"GÖYƏZƏN"**

# TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

***Xalqımıza qarşı törədilən 20 Yanvar faciəsindən 25 il ötür. Bununla əlaqədar olaraq Qazax rayon İcra Hakimiyyəti Başçısının 29 dekabr 2014-cü il tarixli 2/172 nömrəli sərəncamına əsasən tədbirlər planı hazırlanmışdır.***

Rayonun bütün idarə və müəssisələrində 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi müvafiq tədbirlərin təşkili tədbirlər planında tövsiyə olunmuşdur.

Tədbirlər planında 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən toplantı, konfrans və mühazirələrin təşkil edilməsi öz əksini tapmışdır.

Həmçinin rayon Mədəniyyət evində 20 Yanvar faciəsinə həsr olunmuş tamaşaların göstərilməsi, sənədli filmlərin nümayiş etdirilməsi də tədbirlər planında göstərilmişdir.

Tədbirlər planına əsasən 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar həyata keçirilən bütün tədbirlərin "Göyəzən" rayon qəzetində geniş işıqlandırılması tapşırılmışdır.

O cümlədən tədbirlər planında rayonun bütün tədris müəssisələrində 20 Yanvar faciəsinə həsr olunmuş xüsusi dərsin aparılması qeyd edilmişdir.

Şəhidlər Xiyabanındakı abidə önündə 20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü münasibətilə tədbirin keçirilməsi də tədbirlər planında vurğulanmışdır.

Qazax şəhərində 20 Yanvar günü ictimai asayişin qorunması və nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi nəzərdə tutulmuşdur.

20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü ilə əlaqədar keçirilən tədbir zamanı ərazidə təcili-tibbi yardım xidmətinin təşkili öz əksini tapmışdır.

Şəhidlər Xiyabanında gün ərzində matəm musiqisinin səsləndirilməsinin təmin edilməsi, Rayon ərazisində Bakı vaxtı ilə saat 12.00-da şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və avtomobillər vasitəsilə səs siqnallarının verilməsi tədbirlər planında göstərilmişdir.

Tədbirlər planında 20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq rayonun bütün yaşayış məntəqələrində Azərbaycanın dövlət bayraqlarının endirilməsi də nəzərdə tutulmuşdur.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

# 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Qurbanov Aqil Abid oğlu | Rayon İcra Hakimiyyəti başçısının müavini - Aqrar məsələlər şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |
| 6. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin şənbə günü | $10^{00}$-dan |

***Qeyd:*** 1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri

digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.

2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə

qəbul növbəti iş gününə keçirilir.

3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :

**(022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022) 295-56-70**

# Qazax rayon prokurorluğu əməkdaşları tərəfindən 2015-ci ilin 1-ci yarsında vətəndaşların yerlərdə qəbuluna dair QRAFİK

| S/№ | Qəbul aparılan şəhər və kəndlərin adı | Qəbul edən şəxs | Qəbul aparılan Gün və ay və saat |
|---|---|---|---|
| 1 | Qazax şəhəri | Prokuror Əlirza Babayev | 21 yanvar, 10:00 |
| 2 | N.Nərimanov qəsəbəsi | Prokuror müavini Rəfael Həsənov | 28 yanvar 10:00 |
| 3 | Yuxarı Əskipara kəndi | Prokuror Əlirza Babayev | 11 fevral 10:00 |
| 4 | Aşağı Əskipara kəndi | Prokuror müavini Rəfael Həsənov | 25 fevral 10:00 |
| 5 | Barxudarlı və Sofulu kəndləri | Prokuror Əlirza Babayev | 4 mart 10:00 |
| 6 | Bağanıs Ayrım və Xeyrımlı kəndləri | Prokuror müavini Rəfael Həsənov | 18 mart 10:00 |
| 7 | Hüseynbəyli və Canallı kəndləri | Prokuror Əlirza Babayev | 08 aprel 10:00 |
| 8 | Birinci Şıxlı kəndi | Prokuror müavini Rəfael Həsənov | 15 aprel 10:00 |
| 9 | İkinci Şıxlı kəndi | Prokuror Əlirza Babayev | 29 aprel 10:00 |
| 10 | Aslanbəyli kəndi | Prokuror müavini Rəfael Həsənov | 06 may 10:00 |
| 11 | Qaymaqlı kəndi | Prokuror Əlirza Babayev | 13 may 10:00 |
| 12 | Kəmərli kəndi | Prokuror müavini Rəfael Həsənov | 27 may 10:00 |
| 13 | Fərəhli və Qızıl Hacılı kəndləri | Prokuror Əlirza Babayev | 10 iyun 10:00 |
| 14 | Məzəm kəndi | Prokuror müavini Rəfael Həsənov | 17 iyun 10:00 |
| 15 | Cəfərli və Bala Cəfərli kəndləri | Prokuror Əlirza Babayev | 24 iyun 10:00 |

# İyirmi beş il əvvəl başlanan müstəqillik yolu

*Zaman-zaman Azərbaycanın başına gətirilən ağlasığmaz bəlalardan, bənzəri olmayan faciələrdən, soyqırımlardan danışarkən ulu öndər Heydər Əliyev böyük ürək ağrısı və vətəndaş yanğısı ilə deyirdi: "Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir".*

***Vətən uğrunda şəhid olmuş hər bir soydaşımız Azərbaycan xalqının övladı və qürurudur.***

***Heydər ƏLİYEV***

Təsadüfi deyildir ki, ulu öndər 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilməsi haqqında" və 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlar imzalamışdır. Ermənilərin Azərbaycan xalqının başına gətirdikləri bəlaların, törədilmiş vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılmasında məhz həmin fərmanlar əhəmiyyətli rol oynamış, dövlət səviyyəsində sistemli tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Elə 25 il əvvəl baş vermiş 20 Yanvar faciəsinin dünya ictimaiyyətinə çatdırılmasında, sonralar faciəyə hüquqi-siyasi qiymət verilməsində də ulu öndər Heydər Əliyevin bənzərsiz fədakarlığı olmuşdur. Bu gün milli mənafe, milli qürur və təəssübkeşlik naminə fəaliyyətin zirvəsinin şəksiz Heydər Əliyevə məxsus olduğunu desək, yanılmarıq. Ümummilli liderin qəlbi vaxtından, zamanından, harada yaşamağından və işləməyindən asılı olmayaraq həmişə Azərbaycanla döyünüb.

Ötən əsrin 80-ci illərinin sonunda ölkədə baş qaldırmış separatçı meyillərin qarşısını almaq əvəzinə, daha da qızışdırmağı, münaqişə ocaqlarını daha da alovlandırmağı özünə yeni iş üslubu seçən SSRİ rəhbərliyi Sovetlər Birliyinin artıq laxlamaqda olan ideoloji dayaqlarının çökməməsi naminə məqbul və qeyri-məqbul nə varsa, hər şeyə əl atmaq iddiasını gizlətmirdi. Ölkədəki ictimai-siyasi gərginlik, insanların daxili dünyasını təlatümə gətirən müstəqillik arzularının gerçəyə çevrilmək reallığı SSRİ-nin siyasi səmasındakı qara buludları daha da sıxlaşdırırdı.

Azərbaycan xalqının bədxahı Mixail Qorbaçovun iqtisadiyyat üzrə müşaviri, akademik Aqanbekyan mövcud vəziyyətdən girəvə kimi istifadə edərək 1987-ci ilin payızında Parisdə "Hümanite" qəzetinə müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsinin həlli istiqamətlərindən söz açmışdı. SSRİ rəhbərinin erməni müşavirinin həmin müsahibəsi Azərbaycana yönəlmiş bir çox faciə və bəlaların başlanğıcı üçün işarə kimi də qəbul edilə bilərdi.

1922-ci ildən SSRİ-nin tərkibində -"vahid qardaşlıq ailəsində" yaşayan müttəfiq respublikaya qarşı görünməmiş cinayət hərəkətləri törətmiş Kommunist Partiyası rəhbərliyinin məramı bəlli idi: Sovet İttifaqının artıq dağılmaqda olduğunu qəbul etmir, Azərbaycanın müstəqilliyini ağlına belə gətirmək istəmir, hər vəchlə xalqın azadlıq arzularını "erməni dəyənəyi"nin işə salınması ilə boğmaq istəyirdi. Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsinin, Azərbaycanın sərhəd bölgələrində, Bakıda və digər böyük şəhərlərdə fövqəladə vəziyyət rejiminin tətbiqi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanları bu məqsəddən irəli gəlirdi. Bundan sonra imperiya daha iyrənc planını həyata keçirdi və qan tökməkdən belə çəkinmədi. Azərbaycan xalqına, silahsız, əliyalın, dinc, sülhpərvər insanlara qarşı yanvarın 19-dan 20-nə keçən gecə misli görünməmiş faciə törətdi.

20 Yanvar faciəsindən sonra hadisələr inkişaf etdikcə, böhran dərinləşdikcə imperiyanın başabəla ideoloqları çıxış yolu kimi yeni ittifaq müqaviləsinin bağlanması zəruriliyini ortaya atanda ulu öndər Heydər Əliyev bu planın da faydasızlığını, vaxt udmaq cəhdindən başqa bir şey olmadığını hamıdan tez duydu. Məhz bu zamandan başlayaraq uzun illər Kommunist Partiyasının üzvü olmuş Heydər Əliyev 20 Yanvar faciəsindən sonra onda yaranmış fikri qətiləşdirdi. SSRİ-nin siyasi müqəddəratı barədə ümumxalq səsverməsində Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Naxçıvan sakinləri Heydər Əliyevin bu prinsipial məsələ ilə əlaqədar mövqeyini tam dəstəklədilər. Bu, dəyişən dünyanın, Azərbaycan xalqının azadlıq istəyinin tələbi idi.

Ulu öndərin dəmir məntiqi belə idi: SSRİ tarixində yeganə haldır ki, bir müttəfiq respublika digərinin torpaqlarını zəbt edib və İttifaq bu zaman təcavüzkarı dəstəkləyib. SSRİ tarixində yeganə faktdır ki, imperiyanın qoşunları dinc, əliyalın əhalini kütləvi şəkildə qətlə yetirmişdir: "Odur ki, biz sovet, sosialist məzmunundan imtina edib, 1918-ci ildəki Xalq Cümhuriyyətimizin rəmzlərini bərpa etmişiksə, onun ərazisini, ideologiyasını da bərpa etməliyik".

1991-ci il martın 7-də Ali Sovetin sessiyasındakı çıxışında ulu öndər belə bəyan etdi: "Sov. İKP-nın bir hissəsi olan Azərbaycan KP MK-nın platforması artıq xalqı birləşdirə bilmir. O, xalq arasında nüfuzdan düşüb. Bütün xalqın iradəsini təmsil etmir. Ona görə Kommunist Partiyası hakimiyyətindən tamamilə imtina edilməlidir.

Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması ilə təmin edilə bilər. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Belə də oldu! Ulu öndər Heydər Əliyev Azərbaycanı xilas etdi, dönməz müstəqillik və bənzərsiz inkişaf yoluna çıxardı. Ötən illər ərzində dövlətçiliyimizə təhdidlər də az olmadı. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişlərinə cəhdlərin qarşısı məhz ulu öndərin müdrikliyi, qətiyyəti sayəsində alındı. Artıq o illər arxada qalıb. Ölkəmiz Heydər Əliyev siyasi kursu ilə Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu sabahlarına doğru inamla irəliləyir. Bu gün Azərbaycan bir dövlət kimi dünya birliyi sıralarında öz möhtəşəm yerini daha da möhkəmləndirməkdə, beynəlxalq nüfuzunu və qüdrətini daha da artırmaqdadır. Bu, ulu öndərin də, vətən torpaqlarının azadlığı uğrunda həlak olan övladların da, 20 Yanvar şəhidlərinin də arzusu idi. Bu gün Azərbaycan onların ruhları qarşısında bir daha ehtiramla baş əyir.

**"Azərbaycan"**

# "20 Yanvar faciəsi insan hüquqlarının pozulması kontekstində"

**Azərbaycan Respublikasının Ombudsman Aparatının Gəncə Regional Mərkəzi tərəfindən rayonumuzda "20 Yanvar faciəsi insan hüquqlarının pozulması konteksində" mövzusunda dəyirmi masa keçirilmişdir. Ədəbiyyat Muzeyində keçirilən tədbirdə idarə, müəssisə və təşkilat nümayəndələri iştirak etmişdir.**



Əvvəlcə, 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsi bir dəqiqəlik sükutla anılmışdır.

Rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova tədbiri giriş sözü ilə açmış, tədbirin əhəmiyyəti barədə dəyirmi masa iştirakçılarına məlumat vermişdir. Sonra Aparatın Gəncə Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov mövzu ilə bağlı məruzə ilə çıxış etmişdir. O, 20 Yanvar hadisələrinin xalqımıza və bütün bəşəriyyətə qarşı törədilmiş soyqırım olması, xalqımızın başına gətirilən bu dəhşətli faciənin ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən kəskin pislənilməsi və dünya ictimaiyyətinə çatdırılması, ulu öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra, 1994-cü ildə bu hadisəyə hüquqi-siyasi qiymət verilməsi barədə tədbir iştirakçılarına ətraflı və geniş məlumat vermişdir. Rusiya imperyası tərəfindən xalqımıza qarşı törədilmiş bu soyqırım hadisəsinin Beynəlxalq İnsan Hüquqları və Cenevrə konvensiyalarının müddəalarına tam zidd olduğunu, lakin dünyada mövcud olan ikili standartlara görə bu dəhşətli faciəyə hələ də beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilmədiyini söyləmişdir.

Sonra tədbir iştirakçıları 20 Yanvar faciəsi ilə bağlı öz fikir və mülahizələrini söyləmişlər.

**"GÖYƏZƏN"**

# QAZAX SEMENT ZAVODUNDA 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİ ANILMIŞDIR



**20 Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar Qazax Sement Zavodu anım mərasimi keçirmişdir. Tədbir zavodun yerləşdiyi, rayonun ən böyük yaşayış məntəqəsi olan Daş Salahlı kənd icra nümayəndəliyində olmuşdur. Anım mərasimində Daş Salahlıda yaşayan şəhid ailələri iştirak etmişdir.**

Tədbir 20 Yanvar şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Zavodun Administrativ İşlər Departamentinin direktoru Əlif Məmmədov çıxış edərək 20 Yanvar faciəsi barədə ətraflı söz açmış, şəhidlərin əziz xatirəsinin həmişə qəlbimizdə yaşadığını, şəhid ailələrinə zavod rəhbərliyinin daima diqqət və qayğı göstərdiyini bildirmişdir.

İnsan Resursları şöbəsinin rəisi Şahin Həsənov, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, Daş Salahlı kənd icra nümayəndəsi Asif Yusifov çıxış edərək 20 Yanvar faciəsinin Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi olduğunu, ölkəmizin müstəqilliyi uğrunda şəhid olan qəhrəmanların dövlətimiz tərəfindən ən yüksək diqqət və qayğı ilə təmin olunduqlarını qeyd etmişlər. Xalqımızın azadlığı uğrunda öz canından keçən vətən oğullarının arzularının respublikamızın inkişafı zəminində gerçəkləşdiyini bildirmişlər.

Tədbirdə şəhid ailələrindən Söylü İbrahimova, Suraya Cəbiyeva və başqaları çıxış edərək 20 Yanvarın xalqımızın mərdlik və qəhrəmanlıq səhifəsi olduğundan danışmış, onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına, zavodun rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, zavodun rəhbərliyi şəhid ailələrinə həmişə maddi və mənəvi dəstək olmuş, müraciətləri daim yerinə yetirilmişdir.

Tədbirin sonunda zavod tərəfindən 20 şəhid ailəsinə qiymətli hədiyyələr verilmişdir.

Qazax Sement Zavodunun kollektivi 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar rayon mərkəzində keçirilən tədbirdə də fəal iştirak etmişdir.

**"GÖYƏZƏN"**

# "GÖYƏZƏN" QƏZETİ REDAKSİYASINDA 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİ YAD EDİLMİŞDİR

**Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxdı, həm də ona başçılıq edənlərin kimliyi bəlli oldu.**

Artıq 20 Yanvar faciəsindən 25 il ötür. Hər il Azərbaycan xalqı bu şərəf və qürur gününü böyük ehtiramla anır, Vətən uğrunda canlarından keçən şəhidlərinin ruhunu yad edir.

Respublikanın hər yerində olduğu kimi rayonumuzda da RİH Başçısı Ayaz Əsgərovun imzaladığı tədbirlər planına əsasən 20 Yanvar faciəsi ilə əlaqədar bütün idarə, müəssisə və təşkilatlarda silsilə tədbirlər həyata keçirilmişdir.

"Göyəzən" qəzeti redaksiyasında da 20 Yanvar faciəsinin 25-ci ildönümü münasibətilə tədbir keçirilmiş, jurnalistlərin iştirak etdiyi tədbirdə qanlı yanvar hadisələrindən geniş və əhatəli şəkildə söz açılmışdır.

Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Qəzetin baş redaktoru Elçin İsmayıl tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin ermənilərlə birgə apardıqları anti Azərbaycan siyasətinin tərkib hissəsi idi. Lakin imperiya cəlladları qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxardı.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Onun tövsiyəsi ilə 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası keçirilmişdir. Sessiya 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsini, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsini Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirmişdir.

E.İsmayıl qeyd etmişdir ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

20 Yanvar faciəsi, eyni zamanda həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı. Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi olaraq!

Sonra qəzetin əməkdaşları, tədbirdə iştirak edənlər çıxış edərək 20 Yanvar faciəsindən, xalqımızın, əliyalın dinc əhalinin başına gətirilən müsibətlərdən danışmış, şəhidlərimizin qanları, canları bahasına qazanılan müstəqilliyin daimi olmasından söz açmışlar.

**"GÖYƏZƏN"**

# "20 Yanvar" faciəsinin 25-ci ildönümü AMİ-nin Qazax filialında anılmışdır



**Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında "20 yanvar" faciəsinin 25-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirilmişdir.**

Filialın direktoru dossent Afaq Qasımova tədbiri giriş sözü ilə açaraq "20 yanvar" faciəsi şəhidlərinin keçdikləri ömür yolundan və onların Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsindən danışmışdır.

Sonra "20 yanvar" faciəsinə həsr olunmuş slayd təqdim edilmişdir.

Tələbələrdən Cavid Cavadov, Səfa Namazova, Səkinə Əliyeva, Sənəm Namazova çıxış edərək bildirmişlər ki, 1990-cı ilin 20 yanvarı çağdaş tariximizə qürur və şərəf mübarizəsi tarixi kimi daxil olub. Azərbaycan xalqının qürur ünvanına çevrilmiş 20 Yanvar hadisələrindən 25 il ötür. Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməmiş, bu müqəddəs amal uğrunda hətta canlarından belə, keçməyə hazır olduqlarını bütün dünyaya nümayiş etdirmişlər.

# "Qanla yazılmış qəhrəmanlıq salnaməsi" adlı ədəbi-bədii kompozisiya

**Mərkəzi Kitabxana Sisteminin oxu zalında tələbə və məktəblilərin, mədəniyyət işçilərinin, rayon ictimaiyyətinin, fəal oxucuların iştirakı ilə xalqımızın azadlıq tarixinə qanla yazılmış 20 Yanvar faciəsi gününə həsr olunmuş "Qanla yazılmış qəhrəmanlıq salnaməsi" adlı ədəbi-bədii kompozisiya keçirilmişdir.**

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır.

MKS-nin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq 1990-cı ilin 20 yanvar tarixinin xalqımızın yaddaşına milli azadlıq hərəkatının başlandığı bir gün kimi daxil olduğunu qeyd etmiş, hər il yanvar ayının 20-də Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin ehtiramla yad edilməsi istiqamətində kitabxanalarda geniş və əhatəli təbliğat işləri aparıldığını bildirmişdir.

Metodika və biblioqrafiya şöbəsinin müdiri Fatma Hüseynova "Qanla yazılmış qəhrəmanlıq salnaməsi" adlı məruzə ilə çıxış edərək 25 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladlarının soyuq, müdhiş bir qış gecəsində canlarından keçərək şəhidlik zirvəsinə ucalmalarından geniş və ətraflı şəkildə söz açmışdır.

Mədəniyyət və Turizm şöbəsinin məsləhətçisi Nailə Əliyeva, sinif müəllimi Nərmin Yusifova, direktor müavini Münəvvər Süleymanlı məruzə ətrafında çıxış edərək Azərbaycan xalqının 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından, vətənin azadlığı və müstəqilliyi uğrunda ən ağır sınaqlara dözərək, hətta şəhid verərək öz qüdrətini bütün dünyaya göstərməsindən söz açmışlar.

Tədbirdə həmçinin Respublika Prezidentinin və ictimaiyyətinin Şəhidlər Xiyabanına ziyarətinin kino-xronikası göstərilmiş, kitab və dövri mətbuatdan ibarət sərgiyə baxış keçirilmişdir.

Sonra şəhər M.Hüseyn adına məktəb-liseyin IV sinif şagirdləri-Ləman Bayramlı, İsmayıl İsmayılov, Bəyaz Hüseynova, Ayişə Pənahlı, Səid Həsənov, Nicat Hacıyev, Arzum Abbasova, Rəvan Mərdanov, Rəfiqə Babayeva, Nihad Əsgərov, Aysu Xasməmmədova Xalq şairi Zəlimxan Yaqubun "Şəhid qanı" şeirini səhnələşdirilmiş formada söyləmişlər.

**"GÖYƏZƏN"**

## 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

# ŞƏHİDLƏR UNUDULMUR

**Mədəniyyət Mərkəzində 20 Yanvar Ümumxalq Hüzn gününə həsr olunmüş "Şəhidlər unudulmur" adlı dəyirmi masa keçirilmişdir. Tədbirdə mədəniyyət və turizm şöbəsinin işçiləri, kitabxana filiallarının, kənd mədəniyyət klublarının müdirləri, teatr işçiləri iştirak etmişdir.**

Tədbir Dövlət Himninin səslənməsi ilə başlamışdır. Sonra 20 Yanvar Şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Mədəniyyət və Turizm şöbəsinin məsləhətçisi Nailə Əliyeva tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, bu gün xalqımızın "Milli qürur günü" kimi qiymətləndirdiyi o müdhiş gecədən 25 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayət törədildi. Artıq ömrünün sonunu yaşayan, çökməkdə olan Sovet rejimi bütün tarixi ərzində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da daxil etdi. Lakin məğrur Azərbaycan xalqı yenə əyilmədi. Bütün informasiya - təbliğat vasitələri, şairlər, yazarlar müthiş gecəni qələmə aldılar. Vətənimizin müstəqilliyi uğrunda canlarını qurban verən şəhidlərimizin xatirəsi illər ötdükcə, qərinələr, əsrlər keçdikcə unudulmayacaq.

Sonra şöbənin məsləhətçisi Pəri Məmmədova, Mərkəzi Kitabxana Sisteminin direktoru Solmaz Babanlı, 1 saylı kitabxana filialının müdiri Solmaz Nağıyeva, Mədəniyyət Mərkəzinin direktoru Zahidə Həsənova çıxış edərək bildirdilər ki, 20 Yanvar istiqlal yolumuzda bir şəhidlik zirvəsi idi, bu gün hüzn və üzüntü günü kimi deyil, Azərbaycan tarixində şan və şərəf günüdür, milli mərdlik günüdür.

M.P.Vaqif və M.V.Vidadi adına xatirə muzeyinin bərpaçı rəssamı Arzu Musayeva "20 Yanvar"a həsr etdiyi şeiri söyləmişdir. Tədbirin sonunda "Qanlı Yanvar"-a həsr olunmuş filmə baxılmışdır.

**Xuraman ƏZİMOVA**

# ƏRAZİ İLK PARTİYA TƏŞKİLATININ HESABAT YIĞINCAĞI OLMUŞDUR

**Yeni Azərbaycan Partiyası Qazax rayon Təşkilatı Qazax Sement Zavod Ərazi İlk Partiya Təşkilatının 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilmişdir.**

Tədbir iştirakçıları ilk öncə zavodun ərazisindəki ulu öndər Heydər Əliyevin abidəsi önünə gələrək gül dəstələri qoymuş, ümummilli liderin xatirəsini böyük ehtiramla yad etmişlər.

YAP Qazax Sement Zavod Ərazi İlk Partiya Təşkilatının sədri Əlif Məmmədov yığıncaqda təşkilatın 2014-cü ildə görülmüş işlərə dair yekun hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd etmişdir ki, hesabat ilində zavod öz istehsal gücünü artırmaqla yanaşı, rayonun siyasi-ictimai həyatında da yaxından iştirak etmişdir. Ötən il YAP Qazax Sement Zavod Ərazi İlk Partiya Təşkilatı yanında Gənclər Təşkilatı yaradılmışdır. Hesabat dövründə Ərazi İlk Partiya Təşkilatı bir sıra sosial tədbirlərin keçirilməsi ilə fərqlənmiş, 20 Yanvar, 26 fevral Xocalı Soyqırımı ilə əlaqədar Daş Salahlı Şəhidlər Xiyabanı ziyarət edilmiş, şəhid ailələrinə maddi və mənəvi yardımlar göstərilmişdir.

Azərbaycan gənclərinin VII Forumunda Gənclər Təşkilatının nümayəndəsi zavodumuzu təmsil etmişdir ki, bu da qazandığımız uğurların bariz nümunələrindən biridir. Bundan başqa Ərazi İlk Partiya Təşkilatının təşkilatçılığı ilə bütün əlamətdar günlərlə bağlı müxtəlif tədbirlər keçirilmişdir. Hesabat ilində Qazax rayonu üzrə yüksək bal toplamış tələbələrə zavod tərəfindən təqaüd kartları verilmiş, onların valideynləri və müəllimləri qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.



Sonra partiya üzvlərindən Mikayıl İsmayılov, Çingiz Harunov və başqaları çıxış edərək 2014-cü ildə görülmüş işlərə yüksək qiymət vermişlər.

Yeni Azərbaycan Partiyası Qazax rayon Təşkilatının şura üzvü Polad Ağakişiyev Ərazi İlk Partiya Təşkilatının fəaliyyətindən razı qaldığını bildirmiş, siyasi həmfikirlərinə 2015-ci ildə daha böyük uğurlar qazanmağı arzulamışdır.

Tədbirin sonunda YAP Qazax Sement Zavod Ərazi İlk Partiya Təşkilatının 2015-ci ilə dair tədbirlər planı oxunmuş, səsə qoyularaq qəbul edilmişdir.

**Elçin İSMAYIL**

## 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

# QANLI YANVAR

**Artıq 20 Yanvar faciəsindən 25 il ötür. Respublikanın hər yerində olduğu kimi rayonumuzda da 20 Yanvar faciəsi ilə əlaqədar silsilə tədbirlər keçirilmişdir. Qazax Dövlər Rəsm Qalereyası tərəfindən keçirilən tədbirdə idarə və təşkilat nümayəndələri, KİV nümayəndələri, məktəblilər, qalereyanın əməkdaşları, dərnək üzvləri iştirak etmişdir. Keçirilən tədbirdə dərnək üzvlərinin 20 Yanvar faciəsinə həsr etdikləri rəsm əsərləri nümayiş olunmuşdur.**

Qazax Dövlər Rəsm Qalereyasının müdiri Münəvvər Xəlilova tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, 1990-cı ilin 20 yanvar hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sonra dərnək üzvü olan məktəblilərin "20 Yanvar"a həsr etdikləri rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilmişdir. Məktəblilər fırça və boyaların dili ilə Qanlı Yanvar hadisələrini tam dolğunluğu ilə əks etdirmiş, o günləri bir daha gözlər önündə canlandırmışdılar. Çəkilən şəkillər tədbir iştirakçılarının böyük rəğbətinə səbəb olmuşdur.

Mədəniyyət və turizm şöbəsinin məsləhətçisi Pəri məmmədova, gənclər və idman idarəsinin məsləhətçisi İsmayıl Süleymanov və başqaları çıxış edərək 20 Yanvar hadisələrindən, xalqımızın başına gətirilən acı faciədən, əliyalın insanlara qarşı törədilən vəhşilikdən söz açmışlar.

Tədbir Türkel televiziyası tərəfindən işıqlandırılmışdır.

**Nüşabə HÜSEYNOVA**

# Kola içməyin!

**İçərkən dadından doymadığımız qazlı içkilər əslində bir çox xəstəliyə yol açır.**

Məşhur yazar Karen Hill, "Yetəər! Daha pəhriz saxlamaq istəmirəm" adlı kitabında bu içkilərin yaratdığı 12 xəstəlikdən danışıb.

Karen Hill insanların koladan asılı olduqlarını bildirib. Gün ərzində bir-iki litrdən çox kola içirik, sanki su yerinə kola içirik.

Əvvəlcə qeyd edək ki, kola qorxunc asılılıq yaradır. Narkotiki atmaq qədər çətin işdir.

İnsanlar kolanı tərgitməyə qərar verdikləri ilk gün dəhşətli baş ağrısı, titrəmə, əsəbilik və yuxusuzluq kimi problemlərlə üzləşirlər. Lakin iki gündən sonra gümrah olurlar.

Kolanı atmaq üçün lazımlı 12 səbəb...

1 - Kökəlmə və yağlanma

2 - Qaraciyər problemi

3 - Diş çürüməsi

4 - Böyrək daşları və xroniki böyrək çatışmazlığı

5 - Şəkər xəstəliyi

6 - Asit turşusu

7 - Sümük əriməsi

8 - Təzyiq

9 - Ürək xəstəliyi

10 - Həzm problemi

11 - Alzaymer (yaddaş itkisi)

12 - Xərçəng

# İnsanlar günə görə necə dəyişir?

## Anadan olduğun günü dəqiqləşdir, yalnız bundan sonra sən doğum gününün sirrini kəşf edib, bəzi mətləblərdən agah olacaqsan

***Astroloqlar insanın bürcündən başqa, hansı gündə, hansı saatda dünyaya gəldiyinin onun xarakterindən xəbər veridiyini söyləyib.***

Milli.Az anspress-ə istinadən bildirir ki, alimlər həftənin hansı günü dünyaya gəlməsinin insan taleyində rolunun böyük olduğunu iddia edir. Sənin xarakterin və gələcək taleyin həftənin neçənci günündə doğulmağından birbaşa asılıdır. Belə ki, gəlin baxaq görək kim həftənin hansı günü dünyaya gəlib. Doğulduğun ilin təqvimini tap və anadan olduğun günü dəqiqləşdir. Yalnız bundan sonra sən doğum gününün sirrini kəşf edib, bəzi mətləblərdən agah olacaqsan.

**1.Bazar ertəsinin insanları**

Həftənin birinci günü doğulanlar narahat və şübhəli ruhun sahibi olurlar. Əgər onlar daxilindəki təzadları aşıb, nə istədiklərindən baş açsalar, həyatda yüksək mövqeyə çata bilərlər. Bu insanlar emosional cəhətdən açıq, ünsiyyətçidirlər. Eyni zamanda həqiqi hisslərini və ancaq özlərinə məxsus fantaziyaları gizlətməyi də bacarırlar. Onlar həyatın dəyişikliklyinə asanlıqla alışır, hər şeyi öz axarına buraxırlar. Qarşısındakı maneələri aşmağa o qədər də həvəsli deyillər. Onlara güclü sipər gərəkdir. Ona görə də təminatlı insanla ailə qurmağa can atırlar. Ailədə onlar işgüzar, sakitlik yaradan və həyat yoldaşına sədaqətli olurlar. Amma həddən artıq inamsızlıqları və zəifllikləri ucbatından çox zaman tənha qalırlar.

Bazar ertəsinin planeti - romantik Aydır.

**2.Çərşənbə axşamının insanları**

Aqressiv, dalaşqan, möhkəm xarakterə malikdirlər. Kiminsə onlara haqq qazandırmasını xoşlayırlar. Etdiyi hərəkətlərin düzgünlüyünə şübhələr onlarda özünə inamsızlıq yaradır. Ona görə də ailənin və dostların dəstəyinə daim ehtiyac duyurlar. Bu insanlar əvvəl addım atır, sonra fikirləşirlər. Çərşənbə axşamında doğulmusunuzsa, sizə etibarlı məsləhətçi və xeyirxah sirdaş lazımdır. O, sizinlə mehribancasına davranıb, düzgün istiqamətləndirməlidir. Əgər belə olarsa, siz istədiyiniz mövqeyə çata biləcəksiniz. Çərşənbə axşamının planeti-odlu-alovlu Marsdır.

**3.Çərşənbənin insanları**

Həftənin 3-cü günü dünyaya gələnlər mənəvi zənginliyə malik olub, maraq və əyləncə əhatələri genişdir. Onlar ticarət, elm sahəsi, reklam işlərində uğur qazanır, bütün ömürləri boyu öyrənməyə can atır, zəngin təcrübələri ilə seçilir, amma bu keyfiyyətlərini nümayiş etdirməyi xoşlamırlar. Onlar uşaqlıqdan arzular qurur, həyatını planlaşdırır, konkret peşə seçir və sonra məqsədlərinə doğru inamla gedirlər. Əgər siz bu uğurlu gündə doğulmusunuzsa, deməli, Fortunanın sevimlisisiniz. Yanınızda sizi başa düşən, lazım olanda iş-gücdən ayırıb, səyahət və əyləncələrə cəlb edən biri olmalıdır. Çərşənbə gününün planeti-intellekt və ticarətin hamisi Merkuridir.

**4.Cümə axşamının insanları**

Bu gün doğulanlar çox hallarda cəmiyyətdə seçilən, tanınmış, zəngin və orta yaş dövründə müəyyən vəzifəyə çatmış insanlar olurlar. Onlar siyasət, din, idarəçilik sahəsində uğur qazanırlar. Cümə axşamının insanlarında güclü intuisiya və görücülük qabiliyyəti də olur. Bu qabiliyyət hərdən onları qorxudur. İnadcıl olan bu adamlar bəzən ünsiyyətdə olduqları insanları qıcıqlandırır, bəzənsə "key" imici qazanırlar. Ailədə hökmranlığa can atsa da onları dözülməz edə bilər. Teztez qısqanclıq səhnələri yaşanır. Amma dördüncü günün adamları konfliktlərə meyilli olmayıb, yersiz mübahisədən qaçırlar. Əgər ciddi səbəb olarsa, güzəştə gedir, qarşı tərəfi bağışlamırlar. Cümə axşamının planeti-dünyanı idarə edən, zənginlik himayəçisi Yupiter.

**5.Cümə gününün insanları**

Onlar sevib-sevilmək üçün yaranıblar. Həyatdan zövq almaq, doğmalarına gözəl anlar bəxş etmək bu insanların missiyasıdır. İstənilən vəziyyətdə optimist və şən olurlar. Xarici görünüşcə də cəlbedicidirlər. Amma bu insanların hər sözünə inanmayın. Çünki onlar dedikləri sözü tez unudurlar. Beşinci gündə doğulmusunuzsa, ailəni, rahat evi, uşaqları sevirsiz. Amma ailə-məişət problemlərindən tez yorulursunuz. Problemli və ağır xasiyyətli tərəf müqabili sizlik deyil. Sizin yanınızda olan insan azadlıq sevər, qısqanc olmayan, xoşxasiyyətli olmalıdır. Həyat sizin üçün oyun və əyləncədir. Pul qazanmağı və xərcləməyi sevirsiz, çox vaxt pullar özü gəlib sizi tapır. Sizin səyənizdə həm evin, həm də işlədiyiniz yerin bərəkəti artır.

Cümə gününün planeti-gözəllik və sevgi ilahəsi Veneradır.

**6.Şənbə gününün insanları**

Bu inasanlar ağır doğum karamasına malikdirlər. Bu yükə davam gətirməyə elə şənbə doğulanların gücü çatar. Həddsiz dərəcədə işgüzarlığı, ağlı və istedadı, anadangəlmə məsuliyyət hissi bu insanları inanılmaz mövqeyə qaldırır. Onların həyat yolu-əmək, iş, vəzifə borcu və səbrdən ibarətdir. Adətən 6-cı gündə doğulanların şəxsi həyatında problemlər olur. Çünki onlar ailə həyatını 2-ci plana keçirib, hər şeyin öz-özünə düzələcəyini güman edirlər. Hətta ailə quranda da onun qorunması üçün tədbirlər görmürlər. Əgər siz həftənin 6-cı günü doğulmusunuzsa, onda çətinliklərə hazır olun. Çalışın, evdə də özünüzü işdəki kimi aparasız, addımlarınızı ölçüb-biçib, aramla atın. Siz gəncliyinizlə müqayisədə, orta yaşlarda daha xoşbəxt olacaqsız. Şənbə gününün planeti-çətinliklər planeti Saturn.

**7.Bazar gününün insanları**

Onlar aşıb-daşan enerji ilə doludurlar. Hər yerdə, hər bir an bəxtləri gətirir. Həyatın ərköyn uşaqlarıdırlar. Bu insanlar uşaqlıqdan qeyri-adi istedad, daxili güc, gözəllik və xeyirxahlıqları ilə seçilirlər. Qayğısız həyat onları özündənrazı salır. Çox zaman 30-33 yaşına kimi arzuladıqları mövqeni qazanırlar, amma sonra... Sonra isə enerji azalır, çətinliklər başlayır və bütün bunlara alışmayanlar qazandıqlarını da itirmək təhlükəsi ilə qarşılaşır. Bir şəxsiyyət kimi formalaşmaq və təbiətdən gələn fitri istedadlarını itirməmək üçün onlar uşaqlıqdan ciddi rejimdə böyüməli və yaxşı təhsil almalıdırlar. Əgər özünüzə yazığınız gəlməsə, başqalarının köməyinə yox, öz gücünüzə arxayın olsanız, həyatda istədiyiniz xoşbəxtliyə çatarsınız. Siz ağıllı, hökmlü və tələbkar tərəf müqabili ilə ailə qurmalısınız. Bazar gününün planetiəyləncəli və qayğısız həyatın hamisi enerjili Günəş.

# Evlərinin ögü yonca...

Divarları uçurdulmuş, yerlə yeksan edilmiş, 80-ci illərdə sakini olduğumuz köhnə universitet yataqxanası...

Elə qəmli görkəmi var ki...

Şübhəsiz ki, yerində daha gözəlini tikəcəklər. Hər şey təzələnəcək, hər şey dəyişəcək.

Amma o illərin sakinlərinin qəlbində heç vaxt dəyişməyən, pozulmayan bir şey hələ də qalır...

... O illərdə qızlar yataqxanası günəş kimi hərarətli idi, günəş kimi yaxırdı.

Oğlanlar isə günəşin başına fırlanan planetə bənzəyirdilər, üzlərini qızlar yataqxanasına tuturdular.

Boz, rəngsiz, çox yeri tala-tala qaralmış, bayırdan heç nə ilə diqqəti cəlb etməyən qızlar yataqxanasını sirli aləmə, "sevgi planeti"nə

Bu dərdi unutmaq, bu əlacsızlıqdan çıxmaq üçün gərək "sərxoş" olasan.

Bu, əli hər yerdən üzülən sevgilinin yeganə çıxış yoludur. Görünür ki, gerçək həyat bu "yola düşmək" imkanını vermir.

Hər şeyi unudasan ki, o arzuolunan azadlığı qazanasan. Bu isə yalnız "sərxoşluqla" mümkündür. Özgə çarə yoxdur. Bu eşqdən sərxoş olmasan, yol görünmür.

Evlərinin ögü darçın,

Fələk qoymur gözüm açım...

Kimi qoyur ki, səni də qoya.

Sevdinsə, qurtardı.

Hansı dövran böyük sevginin qaratikan kolu olmayıb?

Sevmək bir atəşdir, çox sevdikcə özünü yandıracaq.

çevirən qapının dar ağzında qoşa-qoşa dayanıb sevgilərini izhar edən cütlər, tələbə axşamları və təbii ki, onun sakinləri idi.

O axşamların özünəməxsus gözəlliyi vardı. Başlıcası isə o axşamlar hamını sevgiyə, sevməyə səsləyirdi.

Tələbə olasan, sevməyəsən - günahdır, qəbahətdir.

Tələbə olasan, uçmağın gəlməyə - bahar sız ilə bənzəyir.

Tələbəliklə sevgi bir-birinə elə yaraşırdı ki...

İmtahan qorxusu, müəllim qorxusu, baxışları, həniri şəhərə qədər uzanıb gələn valideyn qorxusu, nə də pulsuzluq o tələbə axşamlarında heç bir arzuya sərhəd çəkə bilmirdi.

Tələbə olasan, oxumağın gəlməyə, içində mahnı səslənməyə - ətirsiz çiçək kimi bir şeydir.

Elə bil o beşillik təhsil müddəti sevgi üçün ayrılmışdı. O beş ildən sonra hərə bir tərəfə üz tutub gedəcək və elə bil o sevgi mövsümünə son qoyulacaq, daha heç vaxt sevmək mümkün olmayacaqdı. O beş il sevginin bahar vədəsi idi, çünki sevginin çiçək açması üçün hər şey vardı. Və uşaqlar da elə bil oxumağa ona görə gəlmişdilər ki, sevgi mövsümü başlamışdı...

Qızlar yataqxanası ümidgah idi, ən çətin, ən ümidsiz xəyalların gerçəkləşəcəyi inam yeriydi. O tələbə axşamlarının səs-küylü, çılğın, işıqlı, ümidli anlarının öz səsi, sədası vardı. Maqnitafon, radio və canlı oxuyanların səsi bir-birinə qarışardı. Və o tələbə axşamlarında həzin, qəmli və qərib bir səs hər şeyi dondurardı, qarışıqa kimi qaynayan həyatı heydən, həniridən salardı.

Nakam, cavabsız sevgi otaqlarının pəncərələrindən qızlar yataqxanasına süzülən kədərin səsiydi bu...

Sevgi keşməkeşində bəxti gətirənlər bu səsin fərqinə varmazdılar.

Bu səs sevgi yollarında uğursuzluqla üzləşən, əli hər şeydən üzülənlərin qu naləsi idi.

O sevgi axşamlarını boynubükük, kövrək və ağlamalı edən də bu səs idi:

Evlərinin ögü yonca...

O mahnı tamaşa idi.

O mahnı səslə şəkil çəkmək idi. Hər sətirdən sonra pərdələr dəyişirdi. Nərminə xanım və Sinan Səid nakam aşiqi sevgisi, dərdi, çarəsizliyi ilə içimizə gətirirdilər. Onun sevgisini özlərininki kimi oxuduqlarına, onun dərdini öz dərdləri kimi çəkdiklərinə görə adama elə gəlirdi ki, bu sevgi elə Nərminə xanımla Sinan Səid arasında yaşanıb və onlar da elə öz sevgilərindən danışırlar.

Yonca qalxmış dam boyunca...

Yonca da dam boyunca qalxarmı?

Yaqin ki, qalxar.

Bütün dünyanın diqqəti o sevgiyə yönəlib.

Yoncası da, otu da, çiçəyi də, yağışı da bu sevginin dərdini çəkir.

Bu yoncanı dam boyda uzadan da o sevgi deyilmi?

Çarəsiz aşiqin gözündə hər şey bələdir.

Saçı uzun, beli incə...

Hər şey o sevgidəndir.

O incəlik də, o uzun saçlar da həsrətin, qovuşmazlığın rəmzidir.

Həsrət çəkməkdən saç uzanır, bel incəlir.

Bütün dünya onu elə sıxır ki, saç uzanmaya, bel incəlməyə bilmir.

Səs deyil, ayrılığın şəklidir, bu.

Evlərinin ögü lalə...

Ruhu sevgilisinin yaşadığı evin kəndarında dolaşan aşiqin bağrı qandır - lalə kimi.

Ona görə hər yer lalə rənginə boyanıb, hər yer lalə kimi alışıb yanır. Və elə bu səbəbdən qızlar yataqxanasının görkəminin eybəcərliyini sevən oğlanlar hiss etməz, görməzdilər.

O yataqxana dünyanın ən gözəl lələzarı idi...

Saqi, doldur, ver piyalə,

Sərxoş olaq, düşək yola...

Yoxsa sevmək sənə elə-belə gəlir?

Səni alım hara qaçım...

Bu bədbəxtin qaçırmağa da yeri yoxdur.

Burada dərdin miqyası çox qəribə şəkildə gözlərimiz önündə canlanır.

O, son imkandan da məhrumdur.

Bütün yollar bağlıdır. Gümanı gələcək yeri belə yoxdur.

Bu, dünyanın hər şeyindən əli üzülən aşiqin son naləsidir.

Bu, heç vaxt olmayacaq.

Heç əli alinə də dəyməyəcək...

Nə yaxşı ki, bu dünyada nakam sevgilər olub, yoxsa bu mahnılar necə doğulardı?!

Hər kədərli mahnı böyük bir sevgiyə ucaldılmış abidədir.

Hər kədərli mahnı böyük bir sevginin körpəsidir.

O, insan kimi, uşaq kimi doğula bilməyəndə səs kimi dünyaya gəlir.

Səs adamın ruhunun şəklidir.

Səs adamın sevgisinin, arzu və istəklərinin qiyafəsidir.

Mahnı sona çatsa da, adam mahnının havasından çıxa bilmirdi.

Səs kəsilsə də, ürəklərdə mahnı hələ də oxunurdu.

O mahnı sevənlərin qanadları idi.

Mahnıdan sonra o tələbə axşamlarının bir müddət sükutu pozulmaz, donu açılmazdı.

Hər iki yataqxananın sakinləri əfsunlanmış, sehirlənmiş kimi o mahnının təsirindən çıxa bilmirdilər.

O sevgi yaşamaq kimi, həyatın özü kimi qaçılmaz bir ehtiyacdan doğurdu.

O sevgidə kimsə qovuşmaqdan daha çox, bir doğmalaşmaq istəyi, bir məhrəm möhtaclıq vardı.

Onda tələbələr bir-birinin sevgisinə sığınırdılar.

Uzaq-uzaq kəndlərdən gələnlər doğmaları kimi baxırdılar sevgilərinə.

O sevgilər ata-ana qayğısının da yerini doldura bilirdi.

Tələbələr sevdiklərinin qəlbinə köçərək orada yuva salır, yurd yeri düzəldirdilər.

Daldalanacaq qururdular.

O qəlb sevənlərin isti ocağına dönürdü.

O qəlb bir cüt göyərçin kimi çırpınan iki gəncə arxa olurdu.

Sevginin gözəlliyi həsrətindədir.

O nə sevgidir ki, yolunda yanıb kül olmayasan, özündə güc tapıb yenidən göyərməyəsən.

Sevmək başqasının qəlbində ev qurmaqdır.

O vaxtlar sınaqları, yoxlamaları, imtahanları vardı sevginin. Bu sınaqlardan üzüağ çıxanlar o "məhəbbət planetinin" - qızlar yataqxanasının qapısındaca yuxarıya çıxan qızlardan "filan otaqdan filankəsi çağırın" səadətinə vəsiqə alırdı.

O filan otaqdakı filankəs də yataqxananın qapısında duranı gözlətdikcə, yataqxananın yuxarı mərtəbəsində deyil, göyün yeddinci qatında hiss edərdi özünü...

Əsl sevgi elə böyük səadət idi ki, onu itirmək qorxusundan qızların boyu uzanar, beli incələrdisə, oğlanlar da quruyub qarmağa dönərdilər.

Sevmək sevənlərə dünyanı bağışlasa da, bir itirmək qorxusu da gətirirdi.

O sevgi tərəzisinin tarazlığını, həssaslığını bir meh belə poza bilərdi.

Onda ürəyini açmaqdan ötrü aylarla, bəzən illərlə o qızlar yataqxanasının keşiyini çəkənlər vardı. Ürəyini aça, sevdiklərini etiraf edə bilməyənlər üçün vaxt ötür, sonra isə gec olurdu. O tələbə axşamlarında eyvan qapısına söykənib o qədər köks ötürənlər vardı ki... Sonralar o çiçir oğlanlar bütün ömrü boyu sağalmaz yara yeri kimi göynəyirdilər...

...Universitetin xarabaya çevrilmiş yataqxanaları mənə nakam sevgiləri, bir də o mahnını xatırladır.

## İTMİŞDİR

Qazax şəhər Azadlıq küçəsində yerləşən mağazaya məxsus 26 saylı qeydiyyat vərəqəsi itdiyi üçün etibarsız sayılır.

"Estafet" qəzetinə məxsus olan dairəvi möhür və künc ştampı itdiyi üçün etibarsız sayılır.


Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK BANK HESAB
№ AZ69AIIB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*